***Sentyabrın 12-dən 13-nə keçən gecə düşmənin dövlət sərhədimizin Daşkəsən, Kəlbəcər və Laçın rayonları istiqamətində genişmiqyaslı hərbi təxribat törətməsi və bunun qarşılığında silahlı qüvvələrimizin gördüyü cavab tədbirləri barədə artıq hamının məlumatı var. Əlbəttə, döyüş bölgəsində baş verənlərdən danışarkən, müvafiq dövlət qurumlarının verdiyi rəsmi məlumatlara etibar edilməlidir. Müharibədən, ön cəbhədən verilən xəbərlər mülki fəaliyyət xəbərlərindən köklü şəkildə fərqlənir və hər kəs buna anlayışla yanaşmalıdır. Vətən oğulları sərhəddə öz qanları, canları hesabına tarix yazarkən, evində oturub ordu haqqında, ordu mənsubları və məsuliyyətli qərar verən orqanlar haqqında məsuliyyətsiz rəylər tirajlayanlar ictimai qınağa tutulmalıdır.***

# Xalqın, dövlətin yanında olmaq məsuliyyəti



Müharibə, Vətən mövzusu, şəhidlik, fədakarlıq siyasi maraq müstəvisinin mövzusu deyil. Üstəlik də Azərbaycandan xaricdə, hansısa xüsusi xidmət orqanının marağına xidmət edənlər, eləcə də, ölkə içində siyasi hakimiyyət uğrunda radikal mübarizə xətti tutanlar sözlərinə, özlərinə çəki-düzən vermək məcburiyyətindədirlər. Bu gün ictimai fikir, gələcəkdə isə tarix onları qınayacaq. Biz Ermənistan silahlı qüvvələrinin diversiya qrupları, informasiya təxribatçıları və vandalizmi beynəlxalq səviyyədə müdafiə edən şəbəkələrləmi mübarizə aparaq, yoxsa, pasportunda “azərbaycanlı” yazılan müəyyən qruplarlamı?! Ermənistan necə qurulub, Ermənistan qurularkən hansı sərhədlər içində qurulub və ən azı son 30 il ərzində xalqımızın başına nə müsibətlər gətirib – bunu bilə-biləmi danışır, yazırlar, yoxsa, bilməyə-bilməyəmi? Hər iki halda bağışlanmazdır. Belə həssas mövzuda bilmədən danışmaq ayıbdır, məsuliyyətsizlikdir, diletantlıqdır, bilərəkdən danışmaq, yazmaqsa alçaqlıqdır, şərəfsizlikdir.

Ərazimizə mina basdıranlarla informasiya mühitini minalayanlar arasında ciddi fərq yoxdur. Hər iki çirkin əməlin qarşısı dərhal alınmalıdır. Sərhəddə, ön cəbhədə əsgərlərimiz, arxa cəbhədə, söz cəbhəsində bütün vətənpərvər, haqsevər vətəndaşlarımız mübarizə aparmalıdır. Siyasi təxribat əməliyyatlarına cəlb olunanlar, aldadılanlar çıxdaş edilməlidirlər. Düşmənin hərbi təxribatı kimi, içimizdəki “beşinci kolon” mənsublarının, yaxud, qanmazların da informasiya təxribatı sistematik xarakter daşıyır. Deməli, susmaq, cavabsız qoymaq düzgün olmaz.

Fikir verin: Ermənistan KİV-də və sosial media seqmentində Azərbaycanın Ermənistan ərazisinə müdaxilə etməsi barədə xəbərlər tirajlanır və bu tirajlanma “azərbaycanlı”lara istinadən baş verir. Heç kəsə, o cümlədən, həmin o istinadgah “azərbaycanlı”lara sirr deyil ki, bizim bölgədə tək bir təcavüzkar və işğalçı dövlət var, o da Ermənistan Respublikası adlanır. Həmin o işğalçı və təcavüzkar Ermənistandır ki, öz silahlı qüvvələrinin şəxsi heyəti və texnikasını Azərbaycan Respublikasının Qarabağ iqtisadi zonasından hələ də çıxarmamışdır. Həmin o Ermənistanın siyasi-hərbi rəhbərliyi öz üzərinə düşən öhdəlikləri, o cümlədən, 10 noyabr tarixli üçtərəfli Bəyanatda yazılan müddəaları yerinə yetirmir, Zəngəzur dəhlizinin açılmasına mane olur, sərhədlərin delimitasiyası və demarkasiyası işini yubadır, sülh anlaşmasından yayınır.

Hər kəs bilməlidir ki, son günlərdəki gərginliyin əsas səbəbkarı Ermənistandır, bu gərginliyin məsuliyyətini ölkəmizlə bölüşdürməyə, hətta Azərbaycanı qınamağa qalxanlar isə məhz təxribatçılardır. Onlar da birbaşa, yaxud, dolayısı yolla, irimiqyaslı erməni təxribatlarına dəstək vermiş olduqlarının fərqində olmalı, özlərinə, sözlərinə çəki-düzən verməlidirlər.

2016-cı ilin Aprel, 2020-ci ilin Tovuz döyüşlərində, 44 günlük müharibədə olduğu kimi, yenə də, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qələbələr qazanılması siyasi ehtirasları Vətən, dövlət hisslərini üstələyənləri təmin etməməkdədir. Bu, açıq-aydın görünür. Görünür ki, hirs-hikkəli radikallar keçici siyasi maraqlarını ülvi Vətən amalının üzərinə qaldırmışdır. Xarici kəşfiyyat orqanlarının əlində oyuncaq olanlar isə, yalnız özlərinə deyil, mənsub olduqları ailələrə də əbədilik tarixi xəcalət gətirirlər. Onlar Azərbaycanın ağ üzünə ləkə sala bilməzlər. Onlar Azərbaycanı, azərbaycanlıları, alimlərimizi, ziyalılarımızı, gənclərimizi ifadə etmir, onlar yalnız özlərini ifadə edirlər. Xalq şairi Fikrət Qocanın məşhur misraları yadıma düşür:

***Babalarımız***
***Biri qaçaq olub, mərd olub,***
***Biri qoçaq olub, mərd olub,***
***Biri kasıb olub, mərd olub,***
***Bəs namərdlər hardandı? –***
***Bax, bu mənə dərd olub...***

Mən deputat seçildiyim Tovuzdan paytaxta yenicə qayıtmışam. Sərhədyanı rayon olan Tovuzda, qəhrəman şəhidlərimizin dəfnində iştirak etdim, onların ailə üzvləri ilə könül söhbəti etdim. Şəhidlərimizin Vətən uğrunda necə şüurlu, necə ürəkdən döyüşdüklərinə, şəhidlik yolunu təsadüfən seçmədiklərinə bir daha əmin oldum. Dağlarda, dərələrdə, istidə, soyuqda döyüşən qəhrəman oğullarımızla, yaxud, onların valideynləri ilə eyni yaşda olub da, onların çəkdiyini çəkməyən, onların yaşadığını yaşamayanların xaricdə (yaxud ölkəmizin paytaxtında) oturub, yayda sərin, qışda isti otaqlarda mühakimə yürütməsinə nə var ki?! Belə bir həssas dönəmdə də, yumşaq kresloda oturub, (bağışlayın məni) yayxana-yayxana öz siyasi çıxarlarının haqq-hesabını aparmağı nə cəmiyyət, nə tarix, nə də Yaradan bağışlayar. Belələri müzəffər Ali Baş Komandanın, onun rəhbərlik etdiyi şanlı ordunun uğurlarına, dövlət – xalq birliyinin təntənəsinə çamur atdıqlarını zənn edir, ancaq o, çamur öz qara üzlərini bir az da qaralatmaqdan başqa heç nəyə yaramaz.

Bəzi soydaşlarımız Azərbaycan Qoşulmama Hərəkatına qoşulanda da, Hərəkatın Bakıda sammiti keçiriləndə və Azərbaycan Prezidenti sədr seçilərkən də, bunun əhəmiyyətsiz bir iş olduğunu deyir, insanları buna inandırmağa çalışırdılar. Onlar Qoşulmama Hərəkatına qoşulmağın və Hərəkata Sədrliyin bizə hansı siyasi-diplomatik üstünlüklər qazandırdığını nəhayət gördülər və utandılarmı? “Bu iqtidar müharibə başlamaz, başlasa da uğur qazana bilməz” – tərzində yanlış və zərərli fikirlər tirajlayırdılar. Bəs belə olmadığını gördükləri, bildikləri halda, utanmağa üzləri, çəkməyə xəcalətləri varmı? Üzünüzü özünüz bilərsiz, xəcalətiniz vardır və çəkməlisiniz...

Biz ölkəmizdəki müəyyən sosial problemləri də bilirik, ancaq bunu bilməklə qalmır, onları etiraf edir, həllinə töhfə verməyə çalışır və nail oluruq. Hər kəs əlini daşın altına qoymalıdır. Vətənə, xalqa xidmət öz yerində, öz dərəcəsində faydalı olmaqdır, dürüst olmaqdır. Onsuz da, İlham Əliyev və onun sadiq siyasi komandası, bütün vətənpərvər qüvvələrlə birgə Azərbaycanın çiçəklənməsini tam təmin edəcək. Siz öz yanlış siyasi xəttinizdən, ritorikanızdan dönməyəcəksinizsə, itirən yalnız özünüz olacaqsınız.

Və nəhayət!

Əlbəttə, dövlətimiz sərhədlərimizin təhlükəsizliyi üçün nəyə imkan varsa, onu etməlidir, edir və edəcək. Dövlət ağlı ilə hakimiyyət ehtirasını cilovlaya bilməyən siyasi partiya rəhbərliyinin düşüncəsini bir tərəziyə qoymaq olmaz. Biz tarixi haqlarımızı, milli ideallarımızı unutmamışıq. Biz xalqımızın başına açılan müsibətləri unutmamışıq. Ermənistan mehriban qonşu kimi davranmağı bacarmayacaqsa, arxayın olun, “dəmir yumruq” yerindədir!

Dövlətimiz var olsun!

***Qənirə PAŞAYEVA,***
***Milli Məclisin Mədəniyyət komitəsinin sədri***